# Yeni İpək Yolunun yaranmasında Azərbaycanın və Türkmənistanın böyük rolu var



Martın 10-da "ADA" Universitetində bu ali məktəbin və Türkmənistanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə "Avropa və Asiya arasında yeni İpək Yolunun yaranmasında Azərbaycanın və Türkmənistanın rolu" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Tədbirdə "ADA" Universitetinin rektoru, səfir Hafiz Paşayev hər iki dövlətin müstəqillik tarixi, bu önəmli hadisənin ölkələrimizin müasir dövlətçilik tarixində rolu, yüksək səviyyədə həyata keçirilən quruculuq işləri barədə danışıb. Azərbaycanın və Türkmənistanın dövlət müstəqilliyinin aparılan uğurlu siyasət nəticəsində gündən-günə möhkəmləndiyini vurğulayan rektor bununla bağlı görülən işlərdən söz açıb. Ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinin inkişafının hər iki tərəf üçün böyük əhəmiyyət daşıdığını bildirən H.Paşayev bu istiqamətdə atılan addımların təqdirəlayiq olduğunu vurğulayıb.

Bu il Türkmənistanın dövlət müstəqilliyi əldə etməsinin 25 illiyinin ölkədə geniş qeyd olunduğunu diqqətə çatdıran rektor qardaş türkmən xalqını təbrik edib, müstəqilliyin qorunub saxlanmasında və daha da möhkəmlənməsində uğurlar arzulayıb.

Konfransda Türkmənistanın ölkəmizdəki səfiri Toyli Komekov çıxış edərək bildirib ki, Azərbaycan ilə Türkmənistanı zəngin mənəviyyat, dözümlülük və qonaqpərvərlik, xalqlarımızın rifahına yönəlmiş yorulmaz əmək birləşdirir. Xalqlarımız arasında münasibətlərin tarixi Böyük İpək Yolu dövrünə gedib çıxır. Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi əməkdaşlığın bütün istiqamətləri üzrə inkişaf edir. Türkmənistanlı diplomat bu münasibətlərin gələcəkdə daha intensiv inkişaf edəcəyinə əminliyini vurğulayıb.

T.Komekov diqqətə çatdırıb ki, Azərbaycanda olduğu kimi, Türkmənistanda da bu il dövlət müstəqilliyinin 25 illiyi qeyd edilir. Bu münasibətlə Prezident Qurbanqulu Berdiməhəmmədov 2016-cı ili Türkmənistanda "İrsə ehtiram və Vətənin çiçəklənməsi ili" elan edib və bununla bağlı artıq silsilə tədbirlərin keçirilməsinə başlanılıb. Türkmənistan səfirliyi yubiley münasibətilə Azərbaycanda da bir sıra görüşlər, tədbirlər keçirməyi nəzərdə tutur. Müasir dövr üçün aktual mövzuya həsr olunan bugünkü konfrans da bu tədbirlərdən biridir.

Sonra Türkmənistanın Humanitar Elmlər və İnkişaf Universitetinin rektoru Esen Aydoğdıyev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, Türkmənistan Dəmir Yolları Nazirliyinin departament rəhbəri Mərdan Taşlıyev infrastruktur sahəsindəki yeniliklər, inkişafın davam etdirilməsi istiqamətində tranzit daşımaların artırılmasının vacibliyi, konteyner daşımaları, Şərq-Qərb dəhlizi, nəqliyyat-logistika infrastrukturunun əhəmiyyəti, regional inkişafı və digər məsələlər barədə danışıblar.

Tədbirdə "Yeni İpək Yolu" layihəsində Azərbaycanın və Türkmənistanın mühüm rolundan söz açılıb, bu layihənin böyük perspektivlərinin olduğu vurğulanıb.

Sonda mövzu ətrafında diskussiyalar aparılıb, suallar cavablandırılıb.

***AZƏRTAC***